# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

## MƏRUZƏSİ

(Əvvəli 4-cü səhifədə).

Əhalinin südə olan tələbatını təmin etmək məqsədi ilə Qəbələ Ticarət Mərkəzində və rayonun qəsəbələrində süd satışı təşkil edilmişdir.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. Rüb ərzində 930 baş inək və düyələrdə süni mayalama aparılmışdır. Mayalandırılmış heyvanlardan 710 baş bala alınmışdır ki, bu da yüksək məhsuldar heyvanların əldə olunmasına imkan yaradacaqdır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizootik durum demək olar ki, sabitdir. 2015-cü ilin I rübü ərzində 11 baş iri buynuzlu, 2 baş xırda buynuzlu heyvanın bruselloza qarşı müayinəsi zamanı xəstə olduğu müəyyən edilmiş, həmin heyvanlar kəsilərək təsərrüfatdan çıxarılmışdır. Digər yoluxucu xəstəliklər müşahidə edilməmişdir.

Respublikamızın paytaxtı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak edir. 2015-ci ilin I rübü ərzində həmin yarmarkalarda 19 ton tumlu, 27 ton qərzəkli meyvələr və 1,5 ton sair tərəvəz satılmışdır. Məhsul istehsalçılarının satış yarmarkalarında iştirakı davam edir.

Novruz bayramı ərəfəsində Qəbələ şəhərində kənd təsərrüfatı məhsullarının satışı yarmarkası təşkil olunmuşdur. Rayon əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatını ödəmək məqsədi ilə yarmarkaya 5 ton mal əti, 4 ton quş əti, 6 ton süd və süd məhsulları, 1,5 ton tərəvəz, 26 ton soğan və kartof, 22 ton meyvə və 18 ton quru meyvə çıxarılmışdır. Yarmarkada satılan kənd təsərrüfatı məhsulları bazar qiymətlərindən 15-20 faiz aşağı qiymətlə əhaliyə təklif olunmuşdur.

Əhali arasında meyvəçiliyin inkişaf etdirilməsi istiqamətində də təbliğat işləri genişləndirilmişdir. Rayonda hazırda mövcud bağ sahələri 6854 hektar, üzüm plantasiyaları isə 458 hektardır. Üzümçülüyün daha da inkişaf etdirilməsi məqsədilə yeni üzüm plantasiyalarının salınması işləri davam etdirilir.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi və bu sahədə görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

Hörmətli yığıncaq iştirakçıları!

2015-ci ildə informasiya kommunikasiya texnologiyaları şəbəkələrinin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmasının zəruriliyi nəzərə alınaraq, vətəndaşların müraciətlərinə baxılmasının operativliyini təmin etmək məqsədilə elektron poçtlar yaradılmışdır. Elektron ünvanlara göndərilən ərizə və şikayətlər dərhal araşdırılaraq, onlar barədə müvafiq tədbirlər görülür.

Cari ilin birinci rübü ərzində rayon icra hakimiyyətinə ümumilikdə 161 ərizə daxil olmuşdur. Daxil olan ərizələrdən 51-i Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 10-u Milli Məclisdən, 1-i Nazirlər Kabinetindən, 13-ü digər mərkəzi icra hakimiyyəti orqanlarından, 86-sı birbaşa isə vətəndaşlardan daxil olmuşdur.

Ərizələr əsasən fərdi yaşayış evlərinin tikintisinə dair icazənin verilməsi, mənzillə təmin olunmaq, müalicəyə göndərilmək, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işlə təmin olunmaq və s. mövzularda yazılmışdır.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir.

Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin birinci rübündə daxil olan ərizələrinin sayı 34 ədəd azalmışdır. Eləcə də 2015-ci ilin birinci rübü ərzində 209 nəfər vətəndaş rayon icra hakimiyyəti başçısının qəbulunda olmuşdur. Bir qayda olaraq vətəndaşların müraciətləri ilə bağlı cavabdeh şəxslər tərəfindən lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada yerinə yetirilmişdir.

2015-ci ilin ötən dövründə rayon icra hakimiyyəti başçısının 12 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 1452 nəfər iştirak etmiş, onlardan 99 nəfər müxtəlif səpkili tələb təkliflər irəli sürmüşlər.

İrəli sürülən tələblərin və müraciətlərin 87-si həll edilmiş, 12 məsələnin həlli isə respublikanın digər aidəyyəti təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin müraciətlərlə əladar onların qarşısında məsələ qaldırılmışdır.

Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif ocaqlarının, körpülərin tikintisi, subartezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

Hörmətli yığıncaq iştirakçıları!

Nazirlər Kabinetinin iclasındakı yekun nitqində Prezident cənab İlham Əliyev qeyri-neft sektorunun və sahibkarlığın inkişafı ilə bağlı tədbirlərin davam etdirilməsinin zəruriliyini vurğulamışdır. Hər bir rayonda sənaye zonalarının yaradılmasının vacibliyini diqqətə çatdıran dövlətimizin başçısı kənd təsərrüfatı sektorunun da inkişafının xüsusi əhəmiyyət kəsb etdiyini, ölkəmizin xarici ərzaq bazarlarından o qədər də asılı olmadığını bildirmiş, lakin bununla belə ərzaq təhlükəsizliyinin tam təmin olunması, torpaqların elektron uçotunun tərtib edilməsi ilə bağlı tapşırıqlarını vermişdir.

Cənab Prezident çıxışında manatın məzənnəsi ilə bağlı məsələyə də toxunmuş, bu sahədə görülən tədbirlərin iqtisadi baxımdan səmərəli olduğunu demişdir.

Prezident cənab İlham Əliyev ölkədə dərman preparatlarının qiymətinin bahalığından narazılığını ifadə edərək, bu sahədəki vəziyyətin araşdırılıb tədbirlərin görülməsi ilə bağlı Səhiyyə Nazirliyinə müvafiq tapşırıqlar vermişdir.

Eləcə də sosial məsələlərin həlli ilə bağlı prioritet tədbirlərin həyata keçiriləcəyini, 2015-ci ildə daha 3 “ASAN xidmət” mərkəzinin açılacağını, əhalinin elektrik enerjisi və içməli su ilə təminatının yaxşılaşdırılacağını söyləyən ölkə başçısı ötən dövrdə bu istiqamətdə mühüm işlərin görüldüyünü bildirmişdir.

Nitqinin sonunda cənab İlham Əliyev ilk Avropa Oyunlarına hazırlığın yüksək səviyyədə getdiyini, artıq bir sıra idman obyektlərinin istifadəyə hazır olduğunu, «Atletlər kəndi»nin də yaradıldığını, paralel olaraq paytaxtda abadlıq-quruculuq işlərinin davam etdirildiyini, yeni bulvar xəttinin salındığını diqqətə çatdırmışdır.

Hörmətli yığıncaq iştirakçıları!

2015-ci ilin birinci rübü ərzində Qəbələ rayonunda görülən işlər barədə Sizə qısa məlumat verdim. Lakin görəcəyimiz işlər daha çoxdur.

Məruzəmin sonunda bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün qüvvələri səfərbər edəcək, yeni nailiyyətlərin qazanılması sahəsində fəaliyyətini genişləndirəcək, üzərinə düşən vəzifələrin icrası istiqamətində bütün lazım gələn tədbirlər həyata keçirəcəkdir.

İcazə verin Sizin hər birinizin, bütün qəbələlilərin adından Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevi əmin edim ki, biz həmişə olduğu kimi 2015-ci ili də yüksək uğurla başa vuracaq, xalqımıza, vətənimizə, dövlətimizə sədaqətlə xidmət edəcəyik.

Diqqətinizə görə sağ olun.

# Alicənab, nəcib və xeyirxah Azərbaycan ziyalısı

Mir Cəlal Paşayev XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminə sanballı töhvə verən nəcib ziyalılardan biri olmuşdur. Bu nəcib və görkəmli ədib mənalı həyatı boyu yüksək vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirmişdir. Onun yüksək sənətkarlıqla, yaradıcılıq eşqi ilə qələmə aldığı əsərləri oxucular tərəfindən sevilə-sevilə qarşılanmışdır. Mir Cəlal Paşayevin yazdığı hər bir əsərdə irəli sürdüyü ideallar xalqın amallarını əks etdirmişdir. Onun əsərlərində Azərbaycan cəmiyyətinin keçdiyi çətin, məşəqqətli və eyni zamanda şərəfli həyat yolu geniş şəkildə şərh olunur.

Professor Mir Cəlal Əli oğlu Paşayev 1908-ci ilin 23 aprelində Cənubi Azərbaycanın Təbriz mahalındakı Əndəbil kəndində yoxsul kəndli ailəsində dünyaya gəlmişdir. Böyük ədibin cəmiyyət üçün layiqli insan kimi yetişməsinə, erkən yaşlarında ali məqsədlər uğrunda mübarizə aparmasına boya-başa çatdığı ailə mühitinin təsiri böyük olmuşdur. Halal zəhməti yüksək dəyərləndirən valideynləri onu daim düzgün yola istiqamətləndirmişlər. Hələ uşaqikən kəndlərində dolanışığın çətinliyi səbəbindən həmvətənləri ilə birgə çörək ardınca vətənimizin quzeyinə pənah gətirmiş, Mir Cəlal uşaqlıq və gənclik illərini Gəncə şəhərində keçirmişdir. İbtidai təhsilini Gəncədəki ruhani mədrəsəsində aldıqdan sonra 1924-cü ildə darülmüəllimə daxil olmuş, sonralar pedaqoji texnikuma çevrilən bu məktəbi 1928-ci ildə başa vurmuşdur.

1928-ci ildən yaradıcılığa başlayan Mir Cəlal əvvəlcə şeirlə məşğul olmuş, sonra “Mirzə Xəyal” adlı komediya yazmışdır. O, Azərbaycan ədəbiyyatı tarixində gözəl hekayələr ustası, rəngarəng mövzulara həsr olunmuş romanlar yaradıcısı, ədəbiyyatımızın klassik və müasir dövrünü, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərlərinin müəllifi kimi tanınmışdır. Mir Cəlal Paşayev ədəbiyyat tarixinə, və ədəbiyyatşünaslığa dair bir sıra qiymətli əsərlərin, monoqrafiyaların müəllifidir. O, hələ tələbə ikən “Qızıl qələmlər” ittifaqının Gəncə şöbəsində şair kimi tanınır. “Qızıl Gəncə” adlı qəzet və jurnalda, habelə “ilk addımlar” məcmuəsində fəal iştirak edir. Yazıçını böyük ədəbiyyata gətirən “Mirzə” hekayəsi də 1930-cu ildə “Qızıl Gəncə” qəzetinin ədəbiyyat səhifəsində işıq üzü görmüşdür.

Mir Cəlal Paşayev orta ixtisas təhsilinə yiyələndikdən sonra məktəb müdiri vəzifəsinə irəli çəkilir. Gəncə və Gədəbəy məktəblərində çalışdığı iki illik dövr gənc yazıçının həyatı daha da dərindən öyrənməsinə, dünyagörüşünün genişlənməsinə böyük təkan verir. Bu illərdə apardığı müşahidələr onun ilk əsərlərində bədii ifadəsini tapır. 1930-cu ildə ali təhsil almaq məqsədi ilə Kazana yollanaraq bu qədim şəhərdə Dövlət Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində oxuyur. 1931-ci ilin axırlarında Bakıya qayıdıb Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun aspiranturasına daxil olur. O, filologiya sahəsində elmi araşdırmalarla yanaşı, ədəbi fəaliyyətini də dayandırmır. “Kommunist”, “Gənc işçi” qəzetləri ilə fəal əməkdaşlıq edir. 1933-cü ildən etibarən Mir Cəlal müəllim həm də ədəbiyyatşünas alim kimi Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında çalışmağa başlayır, 1940-cı ildə elmlər namizədi, 1947-ci ildə isə elmlər doktoru alimlik dərəcəsini alır.

(Ardı 6-cı səhifədə).